**Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərə dəfələrlə səfər edib və hər dəfə də bildirib ki, bütün rayonlarımız bərpa olunacaq, kənd və şəhərlərimizin əvvəlki siması özünə qaytarılacaq. Fevralın 14-də dövlət başçısı birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birgə Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərə gəldi və yenidən bəyan etdi ki, bütün şəhərlərimizin baş planları hazırlanır. Planlar hazır olandan sonra vaxt itirmədən bərpa işlərinə start veriləcək.**

# Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək



Dövlət başçısı səfər zamanı Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Bildirdi ki, Zəngilan rayonunda birinci “ağıllı kənd” layihəsi icra ediləcək. Rayonun Üçüncü Ağalı kəndində həyata keçiriləcək layihə barədə məlumat verən Prezident qeyd etdi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq: yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji.

Yaxşı xatırlayırıq ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyini dəfələrlə bəyan edib. Erməni işğalından azad olunmuş ərazilərin dövlət başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələri hesabına ödəniləcək.

Dövlət başçısı Laçının Güləbird kəndində olarkən bildirdi ki, bu kəndi də düşmən dağıdıb, talan edib: “Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik”.

Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılışından sonra Prezident İlham Əliyev torpaqların suvarma suyu ilə təminatı məsələsinə toxundu. Bildirdi ki, bu günə qədər suvarılmamış qalan 100 min hektar torpaq sahələrinə su veriləcək. Bu barədə tapşırıq verilib. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evlər də, təbiət də bərpa olunacaq. Onun sözlərinə görə, vaxt itirmədən payızlıq əkinə başlanılması ilə bağlı da göstəriş verilib. Qısa müddət ərzində bütün imkanlar, texnika, işçi qüvvəsi səfərbər edilib və 7 min hektarda əkin işləri aparılıb. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin aparılması nəzərdə tutulub.

Prezident qeyd etdi: “Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək”.

***Çingiz VƏLİYEV,***
*Kənd Təsərrüfatı Nazirliyi Ağdam sort sınaq məntəqəsinin müdiri*

Xalq qəzeti 2021.- 18 fevral.- S.3.